# Milli səhiyyəmizə töhfələr

**Bu gün Azərbaycan öz inkişafının yüksək mərhələsini yaşayır. Həyatımızın bütün sahələrində möhtəşəm quruculuq işləri, köklü islahatlar aparılır. Təbii ki, belə bir inkişaf dövrünə çatmaq üçün respublikamız ağır sınaqlardan çıxmış, çətinliklər dəf etmişdi. Müstəqilliyimizin ilk illərində bütün sahələrdə olduğu kimi, səhiyyədə də tənəzzül dövrü yaşanmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın xahişi ilə Azərbaycanda hakimiyyətə qayıdışı anarxiyaya, tənəzzülə son qoydu. Müstəqil Azərbaycan dövləti tənəzzüldən inkişafa doğru istiqamət götürdü. Məhz bu dövrdə səhiyyə sahəsində köklü islahatlara başlandı. 1 milyondan artıq qaçqın və məcburi köçkünü olan respublikamızda iqtisadi islahatlarla yanaşı, insanların sağlamlığı üçün böyük tədbirlər həyata keçirilirdi. Bir çox epidemiyaların başlanması ehtimalı var idi, tibbi xidmət isə çox aşağı səviyyədə idi. Məhz ulu öndərimiz Heydər Əliyevin səhiyyəyə olan diqqət və köməyi sayəsində bu ağır dövrdə respublikada epidemiyalar nəinki baş vermədi, bəzi yoluxucu xəstəliklər - poliomielit və difteriya ləğv edildi. YUNESKO-nun xətti ilə ölkə üçün poliomielit, difteriya əleyhinə vaksin alındı və Azərbaycana poliomielitdən azad ölkə sertifikatı verildi.**



Dünya Səhiyyə Təşkilatının göstəricilərinə görə Azərbaycanda əhalinin sağlamlıq göstəriciləri ildən-ilə yüksəlir. Bu illər ərzində səhiyyənin qanunvericilik bazası yaradılıb, səhiyyə ilə bağlı qanunlar qəbul edilib. Ümumiyyətlə, tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri bütün zamanlarda dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Ümummilli liderimiz Heydər Əliyev respublikaya rəhbərliyinin bütün dövrlərində səhiyyə sisteminin inkişafı - bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsini daim diqqət mərkəzində saxlamışdı.

Ulu öndər ömrünün, fəaliyyətinin sonuna qədər bu şərəfli peşə adamlarından, bütünlükdə səhiyyənin inkişafı üçün köməyini əsirgəmədi. Eyni zamanda onlara inam və etibarını dönə-dönə ifadə edərək, dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə səhiyyə işçilərini öz üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirməyə səsləyirdi: "...dünyada heç bir sahənin işçiləri üçün səhiyyə işçilərinin Hipokrat andı kimi and yoxdur. Heç bir sahədə and yoxdur. Orduya gedən sədaqətlə xidmət etmək üçün and içir, başqa hərbi işdə xidmət edən and içir. Başqa sahələrdə isə heç kəs and içmir. Amma Hipokratın qədim dövrdən bizə qalan andı məhz səhiyyə işçiləri üçündür, həkimlik peşəsini seçənlər üçündür. Bu andı, bu ənənəni heç vaxt unutmaq lazım deyildir..."

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev ölkə həyatının digər sahələri kimi, insanların sağlamlığında mühüm rol oynayan səhiyyə ocaqlarının da inkişafına, bu sahədə mövcud problemlərin tez bir zamanda aradan qaldırılmasına çalışır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə tibbi xidmətin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır. Azərbaycan Prezidenti cənab İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdır ki, "biz artan iqtisadi imkanlarımızı, ilk növbədə, sosial sahələrin inkişafına, o cümlədən səhiyyənin problemlərinin həllinə yönəltməliyik."

Səhiyyənin son illərdəki əhəmiyyətli dərəcədə artan büdcəsinə nəzər saldıqda dövlət başçısının verdiyi vədlərin real işə söykəndiyi bir daha təsdiqlənir. Müstəqil respublikamız ötən illərdə səhiyyə sahəsində həlledici uğurlara imza atmışdır. Respublika Prezidentinin təşəbbüsü ilə son illərdə Səhiyyə Nazirliyi tərəfindən ən vacib sahələr üzrə - "Qan və qan komponentlərinin donorluğu və qan xidmətlərinin inkişafına dair Dövlət Proqramı", "Hemofiliya və talassemiya irsi qan xəstəliyi üzrə Dövlət Proqramı", "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı", "Yoluxucu xəstəliklərin immuno-profilaktikasına dair Tədbirlər Proqramı", "Onkoloji xəstələrin həyati vacib şiş əleyhinə preparatlarla təminatı üzrə Tədbirlər Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması haqqında Tədbirlər Proqramı" hazırlanmış və Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.

Bu gün respublikamızda uğurla həyata keçirilən səhiyyə islahatları, eyni zamanda, infrastrukturun yeniləşdirilməsinə, tibbi xidmətin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Aparılan genişmiqyaslı islahatlar milli səhiyyə sistemimizin sürətlə inkişafına təkan verir, insanlarımızın sağlamlıq imkanlarını genişləndirir. Eyni zamanda səhiyyə işçilərinin sosial müdafiəsinin gücləndirilməsi də dövlət başçısının diqqət mərkəzindədir və bu istiqamətdə də bir sıra əhəmiyyətli addımlar atılır.

Ümumiyyətlə, 2003-cü ildən ötən dövr ərzində Azərbaycan səhiyyəsi böyük inkişaf yolu keçib. Bu sahənin inkişafında dövlət başçısının kadr siyasəti də öz bəhrəsini vermişdir. Belə ki, Prezidentin müvafiq sərəncamı ilə Oqtay Şirəliyev səhiyyə naziri təyin edildikdən sonra ölkəmizin səhiyyəsi bir neçə onilliyə hesab edilə biləcək inkişaf yolu keçdi.

Ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosialyönümlü siyasətinin əsas prioritet istiqamətlərindəndir. Ölkə rəhbərliyinin bilavasitə dəstəyi ilə son illər bu sahədə də mühüm tədbirlər həyata keçirilir.

Respublikamızda ana və uşaqların mühafizəsinin kökündən yaxşılaşdırılması işində Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın böyük xidmətləri vardır.

Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi irəli sürdüyü ilk layihələrdən biri "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsidir. Bu layihə 14 yaşına qədər qeydiyyatda olanların dərman preparatı ilə təmin olunmasına yönəlmişdir. Heydər Əliyev Fondu diabetlə mübarizədə əsl fədakarlıq nümayiş etdirir, öz layihələri ilə ölkəmizdə bu xəstəlikdən əziyyət çəkənlərə ünvanlanmış dövlət qayğısına əsaslı dəstək verməklə, həm də sağlamlığımızın və genefondumuzun qorunmasında yaxından iştirak edir.

Ölkənin birinci xanımının təşəbbüsü ilə reallaşdırılan "Talassemiyasız həyat naminə" layihəsinin əhəmiyyəti də xüsusi vurğulanmalıdır. Dünyanın bəzi regionlarında talassemiya geninin yayılma tezliyinin rekord həddə çatması və Dünya Səhiyyə Təşkilatının narahatlıq doğuran proqnozları Heydər Əliyev Fondunu bu problemə də biganə qoymamışdır. Talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün könüllü donor xidmətinin inkişafı, xəstəliyin yayılmasının qarşısının alınmasından ötrü əhalinin maarifləndirilməsi, talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsi çərçivəsində ölkəmizdə yüksək ixtisaslı kadrların hazırlanması bu sahədə Fondun həyata keçirdiyi proqramın əsas qayəsidir. 2009-cu ildə isə müasir avadanlıqla təchiz olunmuş Talassemiya Mərkəzinin istifadəyə verilməsi Mehriban xanım Əliyevanın Azərbaycan səhiyyəsinə ən böyük töhfələrindən biridir.

Fond səhiyyənin müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi işində də yardımçı olur, təbabətin ən müasir metod və nailiyyətlərindən istifadə üçün beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir. Xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrə kömək məqsədilə Fondun müraciəti əsasında Almaniyanın "Fresenius Medical Care" şirkəti 200 min avro dəyərində 10 ədəd hemodializ aparatını Azərbaycan səhiyyəsinə təqdim etmişdir.

Fondun səhiyyə sahəsində gördüyü işlər dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənir və yüksək qiymətləndirilir. 2007-ci ilin mayında Cenevrədə Dünya Səhiyyə Təşkilatının ali orqanı olan Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasında Azərbaycanda səhiyyənin inkişafında, yeni xəstəxanaların açılmasında və onların müasir avadanlıqla təchiz edilməsində Mehriban xanım Əliyevanın gördüyü işlər xüsusi vurğulanmış və Azərbaycanın birinci xanımına İhsan Doğramacı Ali Sağlamlıq Fondunun mükafatı təqdim edilmişdir.

Bəli, Heydər Əliyev Fondu, onun prezidenti Mehriban xanım Əliyeva xeyirxah işlər görür. Onun köməyi ilə neçə-neçə insan ölümün pəncəsindən xilas olur. Bu, xoşbəxtlik deyilmi? Düşünürəm ki, əsl xoşbəxtlik bu xoşbəxtliyi yaradan, ölümün astanasında olan bir insana bəxş edən insanın özüdür. Və bu insanlardan biridir Mehriban xanım.

Tanrı ona bütün insani keyfiyyətləri bəxş edib. O, təvazökardır, sadədir, mərhəmətlidir...

2007-ci ilin aprelində respublikada poliomielitə qarşı peyvənd kampaniyasının birinci turunda Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva özü poliklinikamıza gəldi, uşaqların peyvənd olunmasında şəxsən iştirak etdi, körpə fidanlara hədiyyələr bağışladı. Onun bir psixoloq kimi uşaqlarla qurduğu ünsiyyətə, peşəkarlığına, sadəliyinə heyran qaldıq.

Mehriban xanım poliklinikada olarkən analarla, tibb işçiləri ilə söhbət etdi, immunlaşdırmanın əhəmiyyətindən danışdı, hər bir müasir ölkədə olduğu kimi Azərbaycanda da uşaqların sağlamlığına qayğının dövlət siyasətinin öncül istiqamətlərindən birini təşkil etdiyini bildirdi. Onun buraya gəlişi kollektivimiz üçün böyük etimad idi və bu etimadı doğrultmağa çalışırıq.

Biz ölkəmizin birinci xanımına bundan sonrakı fəaliyyətində də uğurlar arzulayırıq!

**Ceyran MƏMMƏDOVA,**
**1 saylı Uşaq Poliklinikasının baş həkimi.**